***Azərbaycan xalqı son iki əsrdə çox müsibətlərlə üzləşib. Ancaq XXI əsrin 20-ci ilində həmin müsibətlərimizin böyük əksəriyyətinin ürəyimizdə buraxdığı ağrı-acını nisbətən olsa da, azaltdıq. Torpaqlarımızın dövlət qurmaq üçün ermənilərə verilməsinin, heç zaman unudulmayacaq Mart soyqırımının, çoxsaylı deportasiyaların, Bakının bolşevik-daşnak əsarəti altına keçməsinin, 20 Yanvar faciəsinin, Xocalı qətliamının, eləcə də, yüzlərlə terror, təxribat və erməni namərdliklərinin ağrı-acısını 44 günlük müharibənin sonundakı qələbə sevinci, xüsusən, Bakıda keçirilmiş Zəfər paradı və Anım Günündəki möhtəşəm yürüş müəyyən qədər ovundurdu. Hərçənd, düşmən tarix boyu bizə elə zərbələr vurub ki, dövlət başçımızın da dediyi kimi, biz o faktları heç zaman unutmamışıq və unutmayacağıq.***

# Yeni reallıqlar yeni hədəflərə yol açır

Dövlət başçımız qətiyyətlə xatırladır ki, Dağlıq Qarabağ münaqişəsi başa çatdı, "Dağlıq Qarabağ" adlı inzibati ərazi, qurum mövcud deyil: "Bu günlərdə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının sessiyasında çıxışımda da mən bütün ölkələrə müraciət etdim və dedim, rica edirəm ki, bundan sonra "Dağlıq Qarabağ" ifadəsi işlədilməsin, Azərbaycan ərazisində belə bir qurum yoxdur. Qarabağ zonası var, Şərqi Zəngəzur var. Belə olan halda Minsk qrupunun fəaliyyəti üçün bu gün yeni məsələlər ortalığa çıxmalıdır".

Bu məsələlər nədən ibarət ola bilər? Bəziləri güman edirlər ki, hansısa əyri yollarla ermənilərə Azərbaycan ərazisində müəyyən status verilə bilər. Azərbaycan Prezidenti bu məsələyə də son qoydu – status məsələsi gündəlikdə yoxdur və olmayacaq. Bəzi ermənipərəstlər çalışırlar ki, Üçtərəfli Bəyanatın müddəalarının icrasına mane olmaqla, Azərbaycanın hansısa güzəştə getməsinə nail olmaq mümkündür. Azərbaycan Prezidenti isə elə düşünmür: "Ermənilər istəsələr də, istəməsələr də Zəngəzur səhlizi açılacaq".

Bəs onda bəzi siyasi dairələrin cidd-cəhdlə diriltməyə çalışdığı Minsk qrupunun fəaliyyəti nədən ibarət ola bilər? Bu sualın cavabını da dövlət başçımızın Anadolu Agentliyinə verdiyi müsahibədə tapmaq mümkündür: "Mənim fikrimcə etimad tədbirləri, ondan sonra yolların açılması, dəhlizlərin açılması, sülh prosesinə dəstək vermək, Ermənistan – Azərbaycan əlaqələrini tənzimləmək, çalışmaq ki, Ermənistan – Azərbaycan arasında bizim təklif etdiyimiz sülh müqaviləsi imzalansın. Yəni, məncə, onların fəaliyyət dairəsi bu gündən sonra bundan ibarət olmalıdır".

Təkcə düşmənin yox, onların havadarlarının da bundan sonra heç bir əlavə yol tapması mümkün deyil. Çünki Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi və diplomatik uğurları nəticəsində ermənilərə çox böyük dərs verimişdir. Onlar həmin 44 gündə son əsrlərdəki bütün "qələbə"lərinin sabun köpüyü himi heç-puç olduğunun şahidinə çevrildi və iki yüz, üç yüz il yaşadığı şadyanalıqların hamısı burunlarından gəldi.

Dövlət başçımızın bir çox tədbirlərdə bütün soydaşlarımıza xitabən söylədiyi təcrid siyasəti Ermənistanı hələ 44 günlük müharibədən əvvəl də böyük məğlubiyyətlərlə üzləşdirmişdi. Məhz onun təcrid siyasəti nəticəsində Ermənistan son 17 ildə iqtisadi böhran yaşayırdı. Dövlət başçımızın diplomatik hücumları nəticəsində, xüsusən, Davosda, Münxendə, Soçidə, Aşqabadda aldıqları zərbələrdən sonra İrəvan rəhbərliyi siyasi böhranla da üz-üzə qalmışdı. 44 günlük müharibədəki rəzil məğlubiyyətdən və alçaldıcı kapitulyasiyadan sonra isə təkcə erməni siyasətçilər və işğalçı ordunun rəhbərləri deyil, eləcə də, bütün ermənilər psixoloji böhranın ağır fəsadlarına məruz qaldılar.

Dünyanın müxtəlif qütblərindəki həyasız havadarlarının himayədarlıqları da onların həmin üç böhranın, heç olmazsa, birindən xilas olmasını təmin edə bilmədi. Əksinə düşmən dövlət indi növbəti – mənəvi böhran içərisindədir. Çünki erməni xalqı təslimçi Paşinyana yenidən səs verməyin peşmançılığını yaşayır, İrəvanın müttəfiqləri işğalçıların revanş istəyini intihar adlandırır, beynəlxalq aləmdəki erməni lobbiləri Prezident İlham Əliyevin siyasi qətiyyəti qarşısında duruş gətirə bilməyəcəklərini anlayaraq geri çəkilir, ordan-burdan səsləndirilən boş bəyanatlar isə ac erməni xalqını doyura bilmir. Xalq kasıb, dövlət imkansız, ordu silahsız, siyasətçilər tərk-silah edilmiş şəkildə, "dostlar, həmdərdlər" isə günbə-gün uzaqlaşırlar.

Halbuki, həm ulu öndər Heydər Əliyev, həm Prezident İlham Əliyev, həm də qardaş Türkiyənin dövlət rəsmiləri 20-30 ildir ki, onlara çıxış yolu göstərirdilər. Əgər Ermənistan rəhbərliyi Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəksəydi, işğal olunmuş ərazilərimizdən rədd olub getsəydi, indi onu "iti qovan kimi" qovmazdılar, regional əməkdaşlıq nəticəsində iqtisadiyyatı da normal olardı, əhalisi də firavan yaşayardı, ordusu da sıradan çıxmazdı. O qədər canlı itkiləri də olmazdı. Anlamadılar. Onlar reallığı anlamadılar, biz isə heç zaman bu vəziyyətlə barışmaq fikrində olmadığımızı təkrar-təkrar söylədik. Dövlət başçımız son illər ərzində dəfələrlə demişdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarını işğalçılardan azad edəcək və belə də oldu. Azərbaycan qurtuluş savaşına başlayaraq, öz tarixi torpaqlarını işğalçılardan azad edilməsi ilə tarixi ədaləti bərpasına nail oldu, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü təmin etdi.

İndi həyasızcasına və şərəfsizcəsinə deyirlər ki, "dünya ictimaiyyəti Azərbaycanın ötən ilin payızında başladığı müharibəyə qiymət verməlidir". İnsan nə qədər axmaq olmalıdır ki, bu bəyanatı dilə gətirə bilsin? Axı 30 ildir ki, BMT başda olmaqla dünya ictimaiyyəti kimin işğalçı olduğunu, müharibəni kimin başladığını ovcunun içi kimi aydın görür. İndi Ermənistan rəhbərliyi kimi aldatmağa çalışır və kimi aldada bilər?

Hamı gördü ki, son 30 ildə – müzakirə prosesində Ermənistan daim bizə qarşı hərbi təxribatlar törədir. Danışıqlar prosesində bir az tərəqqi olan kimi dərhal bizə, mülki əhaliyə hücum edir və danışıqları pozurdu.

Dövlət başçımız xatırladır: "İkinci Qarabağ savaşından öncə – iyul və avqust aylarında da buna oxşar hərbi təcavüz etdi. İyul ayında bizim mülki əhalini və hərbçiləri artilleriya atəşinə tutdu. Bunun nəticəsində bizdə itkilər olmuşdur. Avqust ayında isə təxribat qrupunu Azərbaycana göndərmiş və burada terror aktları törətməyə cəhd etmişdi. Bu təxribat qrupu da zərərsizləşdirildi. Bildiyiniz kimi, ondan sonra – sentyabr ayında yenə də bizim kəndlərimizi və hərbi mövqelərimizi atəşə tutmuşdur. Bunun nəticəsində müharibənin ilk günündə bizdə mülki əhali və hərbçilər arasında itkilər, şəhidlər olmuşdur. Təbii ki, artıq buna son qoyulmalı idi və qoyuldu".

Düşmənin bütün cəhdləri puç oldu və Azərbaycan öz ərazi bütövlüyünün bərpası yolunda möhtəşəm addımlar ataraq Cənubi Qafqazda yeni reallıqlar yaratdı. İndi qalib sərkərdə İlham Əliyev dönə-dönə xatırladır ki, biz Ermənistana sülh çağırışları edirik. Ermənilər əvvəlki onillərdə olduğu kimi, indi də heç nə anlaya bilmirlər. İlham Əliyev sülh çağırışlarını təkrar etdikcə, onlar elə bilirlər ki, Azərbaycan hansısa güzəştə gedəcək. Unudurlar ki, bizim güzəşt limitimiz son otuz ildə bitib.

Dövlət başçımız xatırladır ki, biz öz mövqeyimizi dəfələrlə bildirmişdik. Biz istəyirik Ermənistanla sülh müqaviləsi imzalansın. Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü tanısınlar və sərhədlərin delimitasiyası, yəni, müəyyən edilməsi prosesi də başlasın. Ancaq İrəvan nəinki bu ən məqbul varianta müsbət cavab vermir, hətta hərdəmxəyal Nikol Paşinyan həftədə səkkizmən doqquz. Fikrini dəyişir, bir şey uydurur, sonra isə dediklərini inkar edir və erməniləri də, dünya ictimaiyyətini də çaşdırır. Belə görünür ki, Ermənistan buna hazır deyil, ya da əleyhinədir.

Azərbaycan Prezidenti son 17 ildə –ötən ilin sentyabrınadək daim deyirdi ki, lazım gəlsə, biz münaqişəni hərbi yolla da həll edə bilərik, ancaq hələlik sülh danışıqlarına üstünlük veririk. O zaman bəzi ermənilər və erməniyəbənzətənlər yazırdılar ki, "Azərbaycan Prezidentinin gözlədiyi "lazım" gəlməyəcək". Rüsvaycasına təslim olandan sonra isə gördülər ki, lazım gəldi. Bu məsələni əsas götürən erməni politoloq Nikolay Azaryan xatırladır: "Çıxış yolu onun (İlham Əliyevin – red.) dediklərini etməkdir. O, nəyi edəcəyəm, deyibsə – hamısını edir. Onsuz da, sülh razılaşması indi Bakıdan çox bizə lazımdır".

Bu, sadə ermənin dedikləridir, bizim isə rəsmi mövqeyimizdir: "Əgər Ermənistan sülhə hazırdırsa, əgər Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü tanımağa hazırdırsa, onda əlbəttə ki, bölgəyə uzunmüddətli sülh gələcək. Biz bunu istəyirik və eyni zamanda, buna nail olmaq üçün indi konkret təkliflər də masa üzərindədir. Yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, yeni Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir. Hesab edirəm ki, bu Ermənistanın da maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi onların da maraqlarına xidmət edəcək. Onlar da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilərlər. Bu günə qədər bu əlaqə yoxdur və onlar üçün də yeni fürsətlər ortaya çıxacaq".

Hər halda, ötən ilin payızında başlamış və Azərbaycanın möhtəşəm qələbəsi ilə başa çatmış İkinci Qarabağ müharibəsi regionda yeni reallıqlar yaratmışdır. İnanırıq ki, həmin reallıqlar bölgəmizə daimi sülhün gəlməsini də təmin edəcəkdir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***



***Biz Azərbaycanda indi Zəngəzur dəhlizinin yaradılması ilə bağlı genişmiqyaslı işlərə başlamışıq. Zəngilana həm dəmir yolu çəkilir, həm də avtomobil yolu. İndi hava limanları tikilir. Ona görə hesab edirəm ki, biz öz ərazimizdə bütün işləri iki il ərzində görəcəyik. Çünki burada işin həcmi çox böyükdür. Ermənistan ərazisində dəmir yolunun və avtomobil yolunun uzunluğu 40 kilometrdir. Bu, bir ilə, il yarıma çəkilə bilər.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***